# Böyük xilaskar

Dünyada tarix haqqında yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir.

Ulu Öndər Heydər Əliyev də tarix yaradan dahi şəxsiyyətlərdəndir. Ümummilli Lideri dünyanın bir çox görkəmli ictimai siyasi xadimləri, müdrik insanları ilə müqayisə edənlər çox vaxt onun Azərbaycana rəhbərlik etdiyi dövrləri nəzərə çatdırırlar. Bu da təbiidir. Çünki insanlar bu dövrlər barədə daha çox məlumata malikdirlər.

Heydər Əliyevin mənalı həyatının hər günü, hər anı unudulmaz tarixdir, zaman-zaman xatırlanacaq əlamətdar hadisələrlə zəngindir. Böyük rəhbər hələ ötən əsrin 70-ci illərindən Azərbaycanda sağlam milliyyətçilik ideyalarının yayılmasında, xalqda milli mənlik və milli qürur hissinin yaranmasında misilsiz xidmətlər göstərmişdir. Heç nədən və heç kimdən çəkinmədən Azərbaycanı istər iqtisadi, istər siyasi, istərsə də mədəni intellektual cəhətdən dirçəltmək, qədim xalqını öz torpaqların, tarixi irsinin və taleyinin həqiqi sahibinə çevirmək üçün ardıcıl mübarizə aparmışdır.

Heydər Əliyev doğma xalqının qəhrəmanlıq və intellektual potensialı ilə daim qürur duyurdu və vurğulayırdı ki, bizim xalqın böyüklüyü insanların vətənə, torpağa bağlılığı və onu qorumaq hissidir. Bu dahi şəxsiyyət Azərbaycanın nə qədər istedadlı, vətənsevər, cəsur və fədakar, eyni zamanda sülhpərvər, bəşəri dəyərlərlə yaşayan xalq olduğunu bütün dünyaya göstərməyə nail olurdu.

1993-cü il iyunun 15-də Ulu Öndər hakimiyyətə gəldikdən dərhal sonra ölkədə ictimai-siyasi sabitliyin təmin olunması istiqamətində qəti addımlar atıldı. Heydər Əliyev Azərbaycanın inkişafı, beynəlxalq aləmdə möhkəmləndirilməsi istiqamətində fəaliyyətə başladı. 1994-cü ildə dünyanın aparıcı transmilli şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması inkişaf yolunda böyük təkan oldu.

Ümummilli Lider tariximizə həm də ölkəmizdə hüquqi dövlət quruculuğunun banisi kimi daxil oldu. Hər bir dövlətin simasını onun qanunlar toplusu, konstitusiyası müəyyənləşdirir. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq referendumu ilə qəbul edildi. Balanslaşdırılmış xarici siyasət kursu ilə ölkəmizə qarşı təhdidlər ortadan götürüldü. Azərbaycanın müstəqilliyi möhkəmləndirildi.

12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, Ümummilli Liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, bütün fəaliyyətini xalqına həsr edən, milləti, dövləti üçün misilsiz işlər görən rəhbərlər heç zaman unudula bilməz. Heydər Əliyevin ömrü Azərbaycanın iyirminci əsr tarixinə müdriklik, vətənpərvərlik, azərbaycançılıq kimi bəşəri dəyərləri bəxş etməklə bərabər, həm də yeni tariximizdə xalq-rəhbər birliyinin yenilməzliyini həqiqətə çevirdi. Xalqına, dininə, dilinə, tarixinə, adət-ənənəsinə sadiq olanların daim yaşayacağını sübut etdi, bəşəriyyət, azad dünya, xoşbəxt gələcək üçün qurub yaradanların daim xatırlanacağını göstərdi.

Ulu Öndərin "Mən mənalı həyatımın düz altmış ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" sözləri sanki bir ömrün hesabatıdır. Heydər Əliyev öz əməli fəaliyyəti ilə nəinki Azərbaycan, ümumən bəşəriyyət üçün dəyərli bir tarix yaratdı. Bu, bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyi tarixidir. Ulu Öndər irqindən, dilindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəsə hörmətlə yanaşır, insani keyfiyyətləri - səmimiliyi, düzgünlüyü, xeyirxahlığı, alicənablığı, dostluğu, qətiyyətliliyi, kamilliyi yüksək qiymətləndirir, sənət adamlarına həssaslıqla yanaşır, xalqla bir yerdə olmaqdan, insanların rəğbətini qazanmaqdan qürur duyurdu.

Heydər Əliyev dünyada sülhün və əmin-amanlığın tərəfdarı idi. Ölkəmizdə baş verən hadisələr, 20 Yanvar, Xocalı faciəsi, Dağlıq Qarabağ problemi, torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın və məcburi köçkünün taleyi Ulu Öndərin ömrünə ağrı-acılı günlər, illər bəxş etsə də, dincliyini, rahatlığını əlindən alsa da o, müharibənin, qan axıdılmasının tərəfdarı deyildi. Bu dahi şəxsiyyət nəinki Azərbaycan torpağında, dünyanın heç bir guşəsində müharibənin, münaqişənin alovlanmasını, insanların bəlalara, fəlakətlərə düçar olmasını istəmirdi. O, torpaqlarımızın azğın düşməndən azad olunacağına əmin idi və bu yolda öz səylərini bir an da olsun əsirgəmirdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Dəfələrlə xatırladırdı: "İnsan üçün hər şeydən əvvəl onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq".

Bu sözlər Azərbaycanın dövlətçilik tarixinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin - Heydər Əliyevin nəsillərə ən müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də, tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır.

***Mirhaşim CALALOV,***
***tibb üzrə fəlsəfə doktoru,***
***Vətən müharibəsi iştirakçısı***

Azərbaycan.- 2023.- 12 dekabr, № 271.- S.18.